**BİZİM YUBİLYAR**




Görkəmli ədəbiyyatşünas alim, fil. e.d., AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktor müa-vini, Azərbaycan Yazıçılar Birliyinin üzvü **Paşa Kərimovun** 60 yaşı tamam olur. Bu münasibətlə onu təbrik edir, ona həyatında və elmi fəaliyyətində yeni-yeni uğurlar arzu edirik. Paşa Kərimov həyatını elmə, ədəbiyyatı-mızın dərin qatlarının araşdırılmasına, klassik mətnlərin tədqiqinə, bir sözlə, böyük sənəd xəzinəmizin nadir incilə-rinin üzə çıxarılmasına və xalqımıza çatdırılmasına sərf etmiş istedadlı alimlərimizdəndir. 1959-cu ildə Bakı şəhərində anadan olan P.Kərimov Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsini bitirdikdən sonra həyatını Əlyazmalar İnstitutuna bağlamış və bu gün də həmin institutda fəaliyyətini davam etdirməkdədir. Alim 1991-ci ildə "Əlican Qövsi Təbrizinin "Divan" ının tekstoloji tədqiqi və elmi-tənqidi mətni" mövzusunda namizədlik, 2012-ci ildə isə "XVII əsr anadilli Azərbaycan lirikası" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, ədəbiyyatşünaslıq elmimizə dəyərli töhfələr bəxş etmişdir. P.Kərimov müxtəlif illərdə Ankara, Daşkənd, Kabil, Məzari-Şərif, Herat, Aşqabad,

Təbriz, İslamabad və digər şəhərlərdə keçirilən beynəlxalq konfranslarda ədəbiyyat-şünaslıq və mətnşünaslıq elmimizin müxtəlif problemləri ilə bağlı məruzələr etmiş, 2011-ci ildə Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə Vatikan və Romada təşkil olunmuş Azərbaycan Mədəniyyəti Günlərində iştirak etmişdir. P.Kərimovun dəyərli elmi fəaliyyəti həm ölkə daxilində, həm də xaricdə yüksək dəyərləndirilmiş, alim bir sıra nüfuzlu mükafatlara layiq görülmüşdür. 2012-ci ildə Türk Ədəbiyyatı Vəqfinin təsis etdiyi “Türk ədəbiyyatına xidmət baratı” mükafatına layiq görülən P.Kərimov 2015 ci ildə "Tərəqqi" medalı ilə təltif olunub. Bundan bir qədər sonra, 2017-ci il mart ayının 1-də alim İqtisadi Əməkdaşlıq Təşkilatının 13-cü sammitində adıçəkilən təşkilatın “Elm və texnologiya” nominasiyası üzrə mükafatına layiq görülüb və mükafatı alimə Pakistanın Baş naziri Məhəmməd Nəvaz Şərif təqdim edib. P.Kərimov “Əlican Qövsi Təbrizi “Divanı”nın tekstoloji tədqiqi”, “Qövsi Təbrizi “Divan”ının elmi-tənqidi mətni”, “XVII əsr Azəbaycan lirikası”. “XVII əsr Azərbaycan poeziyası”, “Sadiq bəy Sadiqinin türkdilli yaradıcılığı” adlı monoqrafiyaların, 50-dən artıq elmi məqalənin müəllifidir. Ədəbiyyatımızın yorulmaz tədqiqatçısı dünyanın bir sıra fond və kitabxanaları ilə uzun müddətdir yaxından əlaqə saxlayır və ədəbiyyatımızın bir çox incilərinin surətlərinin əldə edilib ölkəmizə gətirilməsində misilsiz xidmətlər göstərir. Görkəmli alimi anadan olmasının 60 illik yubileyi münasibətilə bir daha təbrik edir, ona uzun ömür və fəaliyyətində yeni-yeni uğurlar arzu edirik.

***Raqub Məmmədov,***
*filologiya üzrə elmlər doktoru*